Noyabrın 6-da Elm və Təhsil Nazirliyi ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində Dağlıq Şirvan regionunda təhsil işçiləri üçün “Antikorrupsiya davranış modelinin formalaşdırılması” mövzusunda maarifləndirmə tədbiri keçirilib.

Tədbir Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icrası çərçivəsində təhsil işçilərinin məlumatlılığının artırılması, etik davranış prinsiplərinin təşviqi və korrupsiyaya qarşı davranışın formalaşdırılması məqsədilə təşkil olunub.

Tədbirdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, nazirliyin Daxili nəzarət şöbəsinin müdiri Kamran İsmayılov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev, Mərkəzin şöbə rəisi Nigar Qələndərli, Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Ramin Abasov və digər qonaqlar iştirak ediblər.

Tədbirin açılış hissəsində çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov çıxışında korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planının əhəmiyyətini vurğulayıb. Tahir Məmmədov bu istiqamətdə əldə olunan təcrübənin gələcəkdə də davam etdirilməsinin, maarifləndirmə tədbirlərinin genişləndirilməsinin və korrupsiya risklərinin vaxtında müəyyənləşdirilərək aradan qaldırılmasının vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, bu istiqamətdə dövlət qurumlarının birgə fəaliyyəti və cəmiyyətin bütün sahələrində dürüstlük prinsiplərinin təşviqi korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılmasına xidmət edir.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli çıxışında korrupsiyaya qarşı mübarizənin qanunun aliliyinin, şəffaflığın və dövlətə ictimai etimadın təmin olunmasında mühüm rolunu vurğulayıb. Qeyd edib ki, bu istiqamətdə yalnız hüquqi məsuliyyət tədbirləri deyil, həm də dürüstlük, hesabatlılıq və etik davranış prinsiplərinin təşviqi vacibdir.

Aparat rəhbəri bildirib ki, 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı çərçivəsində Elm və Təhsil Nazirliyi tərəfindən təhsil işçilərinin antikorrupsiya sahəsində məlumatlılığının artırılması və korrupsiyaya qarşı dözümsüz münasibətin formalaşdırılması məqsədilə ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilib. Bu çərçivədə 2026-cı ilin birinci yarımilinin sonunadək 3 930 tədbir təşkil olunub, 149 470 iştirak qeydə alınıb.

Mətin Kərimli təhsil sistemində çalışan hər bir şəxsin fəaliyyətində dürüstlük, obyektivlik və məsuliyyət prinsiplərinə əməl etməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, bu prinsiplərin

gündəlik fəaliyyətin ayrılmaz hissəsinə çevrilməsi sağlam və etibarlı təhsil mühitinin formalaşmasına xidmət edir.

Çıxışlar zamanı Milli Fəaliyyət Planının korrupsiyaya qarşı mübarizədə strateji əhəmiyyəti, məqsəd və hədəfləri, icrasından əldə olunan müsbət nəticələr, eləcə də Elm və Təhsil Nazirliyi ilə Baş Prokurorluq arasında əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Həmçinin nazirlik tərəfindən həyata keçirilən maarifləndirmə tədbirlərinin nəticələri, təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması, dürüstlük və şəffaflıq prinsiplərinin təşviqi istiqamətində görülən işlər barədə məlumat verilib.

Təlim çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Elm və Təhsil Nazirliyinin əməkdaşları tərəfindən korrupsiyanın mahiyyəti və cəmiyyətə təsiri, təhsil sahəsində korrupsiya hüquqpozmalarına qarşı qabaqlayıcı tədbirlərin əhəmiyyəti və preventiv mexanizmlərin rolu diqqətə çatdırılıb. Həmçinin dövlət qulluqçularının etik davranış qaydaları və maraqlar toqquşmasının qarşısının alınması imkanları barədə məsələlərə toxunulub.

Tədbirin sonunda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.